ƏLİ MEHMET CƏLAL ŞƏNGÖR

# DAHİ DİKTATOR

Tərcüməçi:
İnci Qasımlı

qanun nəşriyyatı

ALİ MEHMET CELÂL ŞENGÖR

# DAHİ DİKTATÖR

Atatürk dühası bizim üçün indiki dövrdə hansı əhəmiyyəti daşıyır? XXI əsrdə biz ondan nə öyrənə bilərik? Bəs ağıl və məntiq bizə lazımdırmı? Mövzu Atatürk kimi dahi bir tarixi şəxsiyyət olanda, ortaya çox suallar çıxır.

Atatürk ağlın gücü ilə böyük işlər görə bilməyin bütün mümkün yollarını deyirdi. Nəyisə zor gücünə etməyin və ya etdirməyin düzgün olmadığını izah edirdi. Türkiyəni çağdaş, müstəqil, sivil bir cəmiyyət halına gətirmək üçün bütün sahələrdə inqilablar etməyi bacarmış bir düha haqqında bütün şübhəli qaldığınız mətləblərə geoloq alim Cəlal Şəngör bu kitabı ilə aydınlıq gətirəcək.

Sizcə Atatürk diktator idi? Bu suala cavab vermək çox asandır: Bəli! Amma necə diktator? Bu suala dolğun cavab əlinizdə tutduğunuz kitabın səhifələrindədir. Bir oxucu sadə bir cümlə ilə yazıb: "Atatürk elə bir lider idi ki, alman diktaturasından qaçanlar Türkiyə diktatorunun mərhəmətinə sığındılar". Belə bir müqayisədən sonra kimdəsə şübhə qaldığına inanmaq çətindir.

Xalqını hürriyyətə qovuşdurmaq üçün bəzən mülayim, bəzən də qəddar olan Atatürk haqqında yazılmış bu kitabdan çox şey öyrənəcəyinizə zəmanət veririk.

**Ali Mehmet Celâl Şengör** **DAHİ DİKTATÖR**
**Əli Mehmet Cəlal Şəngör** **DAHİ DİKTATOR**
Bakı, Qanun Nəşriyyatı, 2023, 152 səh.

Janr: non-fiction/tarix
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 21.11.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: İnci Qasımlı Təvəkkül
Redaktor: Şərif Ağayar
Korrektor: Ülviyyə Eminova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-839-8

© Qanun Nəşriyyatı, 2023
© İnkılap Kitabevi, 2023 via Introtema Translation and Copyright Agency

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir

## AKADEMİK Ə. M. CƏLAL ŞƏNGÖR

24 mart 1955-ci ildə İstanbulda dünyaya gəlmişdir. 1973-cü ildə Robert kollecində orta təhsilini başa vurmuş, 1978-ci ildə Albaniyadakı Nyu-York Dövlət Universitetinin (State University of New York) geologiya fakültəsindən məzun olmuşdur. 1979-cu ildə də həmin universitetin magistratura pilləsini bitirmiş, 1982-ci ildə isə doktorluq elmi dərəcəsi almışdır. 1981-ci ildə İstanbul Texniki Universitetinin (İTU) Mədən fakültəsinin Ümumi geologiya kafedrasında elmi köməkçi olmuşdur. 1984-cü ildə London Geologiya Cəmiyyətinin "Prezident Mükafatını", 1986-cı ildə Türkiyə Elmi və Texnologiya Tədqiqat Şurasının "Elm Mükafatı"nı almışdır. Elə həmin il İstanbul Texniki Universitetinin (İTU) Mədən fakültəsinin Ümumi Geologiya kafedrasında dosent olmuşdur. 1988-ci ildə Nevşatel Universitetinin Texniki elmlər fakültəsinin "Fəxri Elmlər doktoru" (Docteur es Sciences honoris causa) dərəcəsini almışdır. 1990-cı ildə Avropa Akademiyasının ilk türk üzvü seçilmişdir. Həmin il Avstriya Geologiya Dərnəyinin, 1991-ci ildə isə Avstriya Geologiya Cəmiyyətinin fəxri üzvü seçilmişdir. 1991-ci ildə Mədəniyyət Nazirliyinin "İnformasiya dövrü" mükafatını qazanmışdır. 1992-ci ildə İstanbul Texniki Universitetinin Mədən fakültəsinin Ümumi Geologiya kafedrasında professor vəzifəsinə yüksəlmişdir. 1993-cü ildə Türkiyə Elmlər Akademiyasının ən gənc qurucu üzvü olmuş və Akademiya Şurasına üzv seçilmişdir. Həmin il Türkiyə Elmi və Texnoloji

Tədqiqat Şurasının elmi fantastika üzrə üzvü olmuşdur. 1994-cü ildə Rusiya Təbiət Elmləri Akademiyasına üzv, həmçinin Fransa və Amerika "Geologiya Birlikləri"nə fəxri üzv seçilmişdir. Əlavə olaraq Fransa Fizika Cəmiyyəti və Ali Normal Məktəbi (Ecole Normale Superieure) tərəfindən "Rammal" medalına layiq görülmüşdür. 1997-ci ildə Şəngör Fransa Elmlər Akademiyası tərəfindən geologiya sahəsində nüfuzlu "Lutaud" mükafatına layiq görülmüşdür. 1998-ci ilin may ayında Şəngörə "Collec de Frans"da qonaq professor olaraq yer verilmişdir. Burada *"Fransız geoloqlarının XIX əsrdə tektonikanın inkişafına verdiyi töhfə"* mövzusunda dərs keçmiş və 28 may 1998-ci ildə "Collec de Frans"ın medalını almışdır. 1999-cu ildə London Geologiya Cəmiyyəti onu "Bigsby" medalı ilə təltif etmişdir. 2000-ci ilin aprel ayında Amerika Birləşmiş Ştatlarının Milli Elmlər Akademiyasının əcnəbi üzvü seçilmiş ilk Türk olmuşdur. Şəngör 2004–2005-ci tədris illərində "Collec de Frans"da "Beynəlxalq Kafedra"nın (Caire internationale) professorluğunu üzərinə götürmüş və 20 mart 2005-ci ildə ikinci dəfə "Collec de Frans" medalını almışdır. 2006-cı ildə üç il ərzində "Paris Milli Təbiət Tarixi Muzeyi"nin fəxri üzvü və Rusiya Elmlər Akademiyasının əcnəbi üzvü seçilmişdir. 2014-cü ildə Leopoldina Almaniya Milli Elmlər Akademiyasına, 2015-ci ildə isə Avstraliya Elmlər Akademiyasına üzv seçilmişdir. 2009-cu ildə Londonda Təbiət Tarixi Muzeyi (The Natural History Museum) Şəngörü fəxri tədqiqatçı təyin etmiş və həmin il dünyanın altıncı ən yaxşı universiteti hesab edilən Çikaqo Universiteti ona elmlər doktoru fəxri dərəcəsini vermişdir. 2010-cu ilin oktyabrında Almaniyanın geologiya üzrə ən yüksək mükafatı "Steinmann medalı" ilə təltif edilmişdir. 2017-ci ildə Amerika Geologiya Cəmiyyətinin Elm Tarixi və Fəlsəfəsi Departamentinin "Mary C. Rabbitt" mükafatını, 2018-ci ildə Avropa Coğrafiya Elmləri Birliyinin geologiya sahəsinə

verdiyi üstün töhfələr və qalıcı işlərə görə ən böyük mükafatı "Arthur Holmes Medalı"nı almışdır. Şəngör "Collec de Frans"dan başqa İngiltərədə Oxford (Kral Cəmiyyəti təqaüdü ilə), ABŞ-da Kaliforniya Texnologiya İnstitutu (Moore Distinguished Scholar kimi) və Avstriyanın Salzburq-Lodron Paris universitetlərində qonaq professor olaraq çalışmışdır.

Şəngör geologiyada, xüsusən də struktur geologiyası və tektonik sahədəki tədqiqatları ilə məşhurdur. Bu mövzuda 17 kitab, 262 elmi məqalə, 217 tezis, 74 məşhur elmi məqalə, tarix və fəlsəfə ilə bağlı məşhur 13 kitab və 500-dən çox esse nəşr etdirmişdir. Bu sadalananlardan 1997–1998-ci illər arasında "Cümhuriyyət Texniki Elm" jurnalındakı "Zümrüddən əkslər" (Zümrütten Akisler) köşəsində nəşr olunanlar "Yapı Kredi Mədəniyyət və İncəsənət" nəşriyyatı tərəfindən 1999-cu ildə *"Zümrüdnamə" (Zümrütname)* adı ilə kitab kimi çap edilmişdir. 2003-cü ildə isə onun ikinci esse kitabı *"Zümrüd ayna" (Zümrüt ayna)* adı ilə nəşr olunmuşdur. Həyat hekayəsi 2010-cu ildə "Türkiyə İş Bankı" nəşriyyatının *"Nehir Söyleyişi"* seriyasında *"Bir elm adamının macərası" (Bir Bilim Adamının Serüveni)* adı altında nəşr edilmişdir. Həmçinin Şəngör bir çox beynəlxalq jurnalda redaktor, köməkçi redaktor və redaksiya heyətinin üzvü olmuşdur və hazırda bu fəaliyyətlərini davam etdirir.

O, 1986-cı ildə Oya Maltəpə ilə ailə qurmuşdur. 1989-cu ildə yeganə oğlu H.C.Asim Şəngör dünyaya gəlmişdir. Cəlal Şəngör ingilis, alman və fransız dillərini bilir.

*Həyatını insan azadlığı və insan ləyaqətini qorumağa həsr etmiş bir şəxsdən bəhs edən bu kitab, tarixdə ilk dəfə azad bir ölümün, kölə kimi yaşamaqdan daha qiymətli olduğunu bütün bəşəriyyətə öyrədən üç ali insanın xatirəsinə ithaf olunmuşdur. Onlar Atatürklə birlikdə bütün hürriyyət döyüşçüləri və insan ləyaqətinin himayədarlarının lideri olmuşlar:*

*Öz ordusundan üç dəfə böyük olan fars ordusunu məhv edərək Marafon döyüşündə qalib gələn* ***Afinalı general Miltiad;***

*Fermopildə neçə min nəfərlik fars ordusuna qarşı döyüşdə 300 qəhrəmanı ilə birlikdə şəhid olan* ***Sparta kralı I Leonid;***

*Öz donanmasından dəfələrlə üstün olan fars donanmasını Egey dənizində məhv edərək Salamin döyüşündə qalib gələn* ***Afinalı admiral Femistokl.***

*Bəşəriyyət öz ləyaqətini bu üç qəhrəmana və onlarla çiyin-çiyinə döyüşən, təvazökar fermerlərdən, sənətkarlardan, tacirlərdən ibarət bütün azad vətəndaşlara borcludur.*

## YENİ NƏŞRƏ ÖN SÖZ

Yazılarımın toplandığı kitabları çap edən şirkətlərdən birinin bunları nəşr etməkdən imtina etməsi, digərinin isə sahibinin yoxa çıxması nəticəsində bu kitabların yeni nəşrlərini "İnqilab" nəşriyyatı öz üzərinə götürdü. Bəlkə də elə əvvəlcədən kitablarımı uşaqlıqdan tanıdığım "İnqilab" ailəsinə verməli idim, amma mən bu günə qədər çap üçün heç kimə müraciət etməmişəm. Təklif həmişə nəşriyyatlardan gəlib. Mənim problemim Türkiyədəki kitab dünyasını tanımamaqdır. Nəhayət "İnqilab" nəşriyyatı məni bu narahatlıqdan xilas etdi. "Türkiyə İş Bankı Mədəniyyət" və "İTU" (İstanbul Texniki Universiteti) nəşriyyatları istisna olmaqla, çap olunan bütün kitablarımın hüquqlarını öz üzərinə götürdü. Bunun məni necə sevindirdiyini izah edə bilmərəm, çünki ibtidai məktəbdə oxumağa başlayarkən ilk kitablarımı hazırda "İnqilab" nəşriyyatını idarə edən Aren Şenorkyanın atası, mərhum dostum Onnik (Orxan) Şenorkyandan almışdım. Ömrüm boyu Orxan qardaşımdan kitab aldım, vaxtaşırı ona baş çəkdim. Orxan qardaşım mənim Türkiyədəki kitab dünyasına açılan pəncərəm idi. O, mənə təkcə ata dostu deyil, həm də bir yol yoldaşı idi.

Aren təxminən bir il əvvəl mənə zəng vurub kitablarımı nəşr etdirmək istədiyini söylədi. Bilmirəm niyə əvvəllər bu haqda

heç düşünməmişdim. Bu, bir səhv idi, yaxşı ki, Aren müdaxilə edərək vəziyyəti düzəltdi.

Kitabların yenidən çap olunmasının ən əsas səbəbi oxucuların istəyidir. Bu kitablardakı yazılar mənim gündəlik qəzetlərdə və ya başqa yerlərdə dərc etdirdiyim "Fıkra"lardır, amma artıq "Fıkra"nı ədəbi janr kimi bilən adamlar qalmadığı üçün bu söz, mənim burada işlətdiyim mənada işlənmir. Əli Püsküllüoğlu öz lüğətində "Fıkra" sözünü belə izah edir: "Qəzetlərin müəyyən sütunlarında və hər dəfə eyni başlıq altında gündəlik hadisə və problemləri bir fikir və düşüncə ilə əlaqələndirərək şərh edən, köşə yazısı da deyilən çoxmənalı yazı növü". Əslində, "Fıkra"nın müəyyən qəzet sütununda dərc olunması vacib deyil. O, qısa və özü-özünü izah edən bir yazı növüdür. Gülməli, ibrətamiz ola bilər və ya Püsküllüoğlunun dediyi kimi, bir düşüncə, yaxud şərhi ümumiləşdirən bir tezis mahiyyəti də daşıya bilər. Bu kitablardakı yazıların çoxu məhz fıkradır. Onların arasında bəzi məqalələr də vardır.

Fıkraların çoxunun mövzusu elm və bəzi gündəlik hadisələrin elm və təhsillə əlaqəsi haqqındadır. Hamısı aktuallığını bu gün də qoruyur. Bəziləri keçmiş hökumət və dövlət başçılarının səhv sandığım fəaliyyəti haqqındadır. Bu səhvlərin artaraq davam etməsi bu yazıları təəssüf ki, hələ də aktual edir.

Bu qısa ön sözü yekunlaşdırarkən, bir daha Arenə təşəkkürümü bildirmək istəyirəm. Aren bu kitabların xilaskarıdır. Dediyim kimi, bir az fikirləşsəydim, ilk növbədə onun rəhmətlik atasının yanına gedib, kitablarımı ona verməli idim. Nə yaxşı ki Aren həm yaxşı bir naşir, həm də bir ailə dostu kimi işə müdaxilə edərək məni və kitablarımı xilas etdi.

***Ə. M. Cəlal Şəngör***

*Anadolu Hasarı, 21 Yanvar 2018*

# ATATÜRKÜN METODU

# GİRİŞ

Bütün dövrlərin ən böyük hərbi və dövlət xadimlərindən sayılan Qazi Mustafa Kamal Atatürk (1881–1938) əldə etdiyi uğurlara görə möcüzələr yaradan dahi kimi qiymətləndirilir. Atatürk dühasına bu günə qədər heç bir dost və ya düşmən şübhə etməmişdir. Lakin onun etdiyi işlər şübhəsiz ki, möcüzə deyil. Yəni fövqəltəbii qüvvələrin köməyi ilə edilməmişdir. Dostları tərəfindən "Allahın bir lütfü", düşmənləri tərəfindən "Dəccal" kimi təsvir edilsə də, elmi zəka nə birinci, nə də ikinci şərhi ciddi qəbul edir. Dahi Atatürk öz dühasından bəlli bir üsulla istifadə edərək uğur qazanmış istedadlı bir şəxsiyyətdir. Onun əldə etdiyi uğur o qədər böyük və təəccüblüdür ki, bu uğurun səbəbləri fəlsəfi, psixoloji və sosioloji baxımdan çox cəlbedici tədqiqat mövzusudur.

Atatürk uğurunun özü ilə əlaqəli iki əsas komponenti vardır: *dühası* və bu dühadan səmərəli istifadə etməyə imkan verən *metodu*. Dahilik bioloji və onun alt qolları olan tibb və psixologiyanın mövzusudur. Onun araşdırılması Atatürkün şəxsiyyətindən kənara çıxan ümumi problem yaradır. Atatürkə öz dühasından məhsuldar istifadə etmək imkanı verən metodu isə birbaşa Atatürk şəxsiyyəti ilə bağlıdır və burada toxunub həll etmək istədiyim problem tamamilə onun metodu ilə bağlıdır. Başqa sözlə desək, bu yazı Atatürkün uğurlarının səbəblərini

fəlsəfi, xüsusilə də elmi məlumatlar aspektindən araşdırmaq məqsədi ilə planlaşdırılmışdır.

### İrəli sürülən tezis

Təqdim etdiyim tezis Atatürkün "Ölkəni düşmənlərdən xilas etmək və milləti müasir sivilizasiya səviyyəsinə yüksəltmək" kimi ümumiləşdirilən problemləri həll etmək üçün istifadə etdiyi metodun, xüsusilə təbiət elmlərində çox geniş yayılan və elmi ifadəsini ilk dəfə böyük filosof Vyanalı Karl Raymond Popperin[1] (1902–1994) 1933-cü və 1935-ci illərdə nəşr etdirdiyi iki mötəbər kitabında[2] (yəni təxminən Atatürkün işini bitirdiyi illərdə) tapan "tənqidi rasionalizm" *(kritischer Rationalismus-critiral rasionalism)* tezisidir.

"Tənqidi rasionalizm" problemlərin həlli üçün fərziyyələr irəli sürmək və təklif olunan fərziyyələri müşahidə hesabatları ilə yoxlayaraq, bir-birinə zidd olanları, başqa sözlə, "yanlış hesab edilənlər"i aradan qaldırmaq kimi ifadə edilə bilər. Elm tarixinə nəzər saldıqda görürük ki, "elm" kimi tanıya biləcəyimiz ən qədim insan fəaliyyəti də bu əsas metoddan istifadə etmişdir.

---

[1] 1. Popper, K., 1933, Ein Kriterium des empirischen Charakters theoretischer Systeme (Vorläufige Mitteilung): Erkenntnis, c.3 (Annalen der Philosophie, c.11) ss. 426–427. Popper, K. R., 1935, Logik der Forschung: Springer Verlag, Wien, vi + 248 ss. (Bu çox əhəmiyyətli əsərin İngilis dilində onuncu nəşri dilimizə "Elmi araşdırmanın məntiqi" başlığı ilə 1998-ci ildə tərcümə edilmişdir. "İstifadə etmək üçün tövsiyə olunan mənbələr" bölməsinə bax. Erkenntnis 1933-cü ildə nəşr olunan qısa məqalənin tərcüməsi, bu tərcümənin 356-358-ci səhifələrində qeyd olunmuşdur. Ancaq Alman dilində bilənlərə Popperin hər iki əsərinin də almanca orijinallarını oxumağı tövsiyə edərdim. Logik der Forschungen müəllifin sağlığında edilən ən son nəşri 10-cu Almanca nəşridir. Popper, K.R., 1994, Logik der Forschung, zehnte verbeserte und vermehrte Auflage: J. C.B. Mohr (Poul Siebeck), Tübingen, XXIX + 481 s.

[2] Atatürkün işini təxminən bitirdiyi illərdə tapılan "tənqidi rasionalizm" (kritischer rationalismus-critiral rasionalism) tezisidir.